# BU GÜN AZƏRBAYCAN TƏHSİL TARİXİNİN ƏN ŞANLI GÜNLƏRİNDƏN BİRİ KİMİ TARİXƏ DÜŞƏCƏK

## Elm və təhsil naziri Şuşada ilk dərs günündə, Xocalıda məktəb açılışında iştirak edib






Sentyabrın 16-da 2024-2025-ci tədris ilində fəaliyyətə başlayan Şuşa şəhəri 1 nömrəli tam orta məktəbdə ilk dərs günü tədbiri keçirilib.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Qarabağ Regional Təhsil İdarəsinin müdir səlahiyyətlərini icra edən müdir müavini Anar Məcidov, eləcə də məktəb kollektivi və valideynlər iştirak ediblər.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Şuşa məktəbinin Azərbaycan təhsil sistemi üçün tarixi əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Şuşa məktəbinin ən müasir standartlarla inşa edildiyini vurğulayan nazir məktəbin şagird və müəllim kollektivinə uğurlar arzulayıb. Emin Əmrullayev sözügedən məktəbin Azərbaycan təhsil sistemində uğurları ilə qabaqcıl məktəblərdən biri olacağına əmin olduğunu deyib.

Daha sonra Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Əməkdar müəllim Asif Cahangirov da müəllim və şagirdləri təbrik edib, onlara yeni tədris ilində uğurlar arzulayıblar.

Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin direktoru Səbinə Gözəlova təhsil ocağı barədə məlumat verib. Bildirib ki, 960 şagird yerlik üçmərtəbəli bina beş blokdan ibarətdir. Burada hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, STEAM mərkəzi, kitabxana, oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları, tibb, müayinə və inzibati heyət üçün iş otaqları var.

Sonra yeni dərs ilinin zəngi çalınıb.

Yekunda məktəbdə yaradılan şəraitə baxış keçirilib.





### Emin Əmrullayev

"Bu gün Azərbaycan təhsil tarixinin ən şanlı günlərindən biri kimi tarixə düşəcək. Çünki bir neçə saat əvvəl Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin, indi isə Xocalı şəhərindəki 1 nömrəli məktəbin açılışını edirik. Bu gün Qarabağda qeyd olunan Bilik Günü hər kəsin, xüsusilə şagirdlərin yaddaşında daimi qalacaq. Uzunmüddətli fasilədən sonra Xocalı şəhərində həm insanlarımız, həm də təhsilimiz öz yurduna qayıdıb. Biz hələ bu Böyük Qayıdışın başlanğıcındayıq. İnanıram ki, illər ötəcək və bu gün bəlkə də kiçik görünən bu məktəb böyüyəcək və bölgənin ən qabaqcıl məktəblərindən birinə çevriləcək... Bu gün sevindirici haldır ki, Xocalıda hər kəs bir-birini qayıdış münasibətilə təbrik edir. Bu günü bizə yaşadan Azərbaycan Ordusunun şəhidlərinə Allahdan rəhmət diləyirəm. Bu işdə öz canından və qanından keçmiş qazilərimizə şəfa diləyirəm. Eyni zamanda, Azərbaycan Respublikasının Ali Baş Komandanı, Prezident İlham Əliyevə bütün təhsil işçiləri adından öz təşəkkürümü bildirirəm. Çünki işğaldan azad edilmiş bütün bölgələrdə ilk inşa olunan binalar məhz məktəblər və təhsil müəssisələri idi".




Sentyabrın 16-da Xocalı şəhərində inşa edilmiş 1 nömrəli tam orta məktəb istifadəyə verilib.

Açılış mərasimində elm və təhsil naziri Emin Əmrullayev, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov, Qarabağ Regional Təhsil İdarəsinin müdir səlahiyyətlərini icra edən müdir müavini Anar Məcidov, eləcə də məktəb kollektivi və valideynlər iştirak ediblər.

Əvvəlcə Dövlət Himni səsləndirilib. Ardınca Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev hər birimizin qan yaddaşı kimi xatırladığımız Xocalıda uzun illər sonra məktəb açılışının sevindirici bir hadisə olduğunu vurğulayıb. Nazir uzun həsrətdən sonra bizə bu sevinci yaşadan şəhidlərimizi anaraq onlara Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyib. İşğaldan azad edilmiş ərazilərdə ilk olaraq inşa edilən müəssisələr sırasında məktəblərin olduğunu bildirən Emin Əmrullayev bu diqqət və qayğıya görə təhsil işçiləri adından ölkə başçısı cənab İlham Əliyevə təşəkkürünü ifadə edib.

Nazir bu gün balaca görünən Xocalı məktəbinin illər sonra ölkənin ən qabaqcıl məktəblərindən biri olacağına inandığını dilə gətirib. Emin Əmrullayev bundan sonra sözügedən məktəbin uğurlarına, xoş sədalarına şahid olacağımızı vurğulayıb.

Digər qonaqlar da, öz növbəsində, məktəb kollektivini təbrik edib və onlara uğurlar arzulayıb.

Daha sonra məktəbdə yaradılmış şəraitlə tanışlıq olub. Bildirilib ki, 132 şagird yerlik Xocalı şəhəri 1 nömrəli tam orta məktəbdə 16 nəfərlik heyət şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olacaq. Şagirdlərdən 8 nəfəri I sinif, 21 nəfəri II-XI sinif üzrə təhsil alacaq. 5 nəfər isə məktəbəhazırlıq qruplarında tədrisə cəlb olunacaq.



